UOT 78.02 **MUSİQİ SƏNƏTİ**

**Məhəmməd Vaqif oğlu Vəliyev**
**Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası**
**Müəllim**
**E-mail: max-ss@list.ru**

# İSMAYIL HACIBƏYOVUN "İSTƏKLƏR" TRİOSU (1998)

**Xülasə:** Məqalədə görkəmli bəstəkar İsmayıl Hacıbəyovun son əsərlərindən biri fortepiano, klarnet, fleyta üçün yazılmış "İstəklər" triosu araşdırılır. Bu əsər bəstəkarın yaradıcılığındakı taleyi uğurlu olmuş əsərlər sırasındadır. Bir çox beynəlxalq festivallarda, xarici ölkələrin konsert salonlarında və öz vətənində müvəffəqiyyət qazanmışdır. Məzmun və kompozisiya həlli baxımından maraq doğuran və üslub orijinallığına görə fərqlənən əsərlərdəndir. Trio milli ruhu, motivlərinin lakonikliyi, ritmlərinin sinkopalılığı və polifonik cəhətdən böyük professionallıqla yazılması ilə böyük maraq doğurur.

**Açar sözlər:** Bəstəkar, Üzeyir Hacıbəyli, millilik, dramatizm, trio, məzmun, fleyta, klarnet, piano, kulminasiya, polifoniya

Hacıbəyovlar musiqi dinastiyasının sonuncu nümayəndəsi İsmayıl Hacıbəyovun kamera instrumental musiqisinin ən yüksək zirvəsi 1998 ildəfleyta, klarnet və fortepiano üçün yazdığı «İstəklər...» («Jelanie») triosudur. Fərəc Qarayevin sifarişi ilə İsveçrədə keçirilmiş Beynəlxalq festival üçün yazılmış bu əsərin taleyi uğurlu olmuş, həmçinin Moskvada keçirilən Beynəlxalq festivalda ifa olunaraq böyük uğur qazanmışdır. Bakıda isə bu əsərin ilk ifaçıları Nizami Zeynalov, Elman Mustafayev, Ülviyyə Hacıbəyova olmuşlar. Sonralar bu əsər Türkiyədə, Rusiyada, Avropada səslənmiş və indiyədək sevilərək ifa edilir. İlk dəfə əsəri dinləyən görkəmli bəstəkar Fərəc Qarayev trionu dahiyanə bir əsər adlandırmışdır.

Əsər həm musiqi dili, həm quruluşu, həm milliliyi, həm gərgin, sanki tarıma çəkilmiş dərin dramatizmi ilə adamı valeh edir.

"İstəklər" triosu bəstəkarın musiqi dili etibarilə parlaq, çoxcəhətli, məzmunlu və dolğun təbiətini bir daha təsdiqləyir. İlk olaraq onu qeyd edək ki, bəstəkarın trio janrı sahəsində yaradıcı axtarışları Azərbaycan kamera-instrumental musiqisində baş verən üslub yeniləşməsinə bariz nümunədir. Demək olar ki, bəstəkar özünü bu əsərdə xüsusi dolğunluqla ifadə etmiş və musiqinin hazırki janrında qüvvəsini sınayaraq, maraqlı və bənzərsiz nümunə yaramağa müvəffəq olmuşdur.

Əsər maraqlı tərkibə malikdir (Flute grande, Clarinet in “B”, Piano). Belə bir tərkib bir tərəfdən müasir Azərbaycan kamera musiqisində yenidir, digər tərəfdən, hazırkı tərkib üçün kamera-instrumental ansamblın yaradılması müəllifin məqsədyönlü işinə və bədii yetkinliyinə işarədir.

Məzmun və kompozisiya həlli baxımından əsər xüsusilə maraq doğurur və müəyyən mənada öz üslub orijinallığı və kompozisiya modelinə görə fərqlənir: burada məzmun və forma özünün harmonik təcəssümünü tapır. Bu mənada əsərin daxili quruluşu, onun hər bir hissəsi özünə görə nümunəvidir. Belə ki, adı gedən janrla və ona müvafiq forma ilə bağlı olub, XX əsr müasir kamera-instrumental musiqisinin ifaçılıq üsulları və üslub xüsusiyyətlərindən irəli gələn musiqi başlanğıcı ilə bizi tanış edir.

Əsər özünün linear fakturası, motivlərin lakonizmi, ritmlərin sinkopalılığı, mövzunun polifonik cəhətdən işlənməsi, registr və tembr səsləşmələri ilə seçilir. Səsaltı polifonik quruluşların tətbiqi, müxtəlif tembr üsullarının, koloristik effektlərin rəngarəngliyi trionun musiqisini yaddaqalan edir.

Birhissəli əsər öz daxilində üçhissəli quruluşa malik olaraq (A-B-A), “klassik” üslub təmayüllərinin Azərbaycan musiqi elementləri ilə növbələşməsini maraqlı tərzdə birləşdirir. Musiqi dramaturgiyası və ifadə şərhinin prinsipləri orijinaldır. Tematizmin intonasiya konturları, variantlı - variasiyalı işlənmə, qeyri - standart imitasiyalılıq folklora fərdi yanaşma ilə ifadə olunmuşdur. Düşünülmüş musiqi forması və tematizmi, aydınlığı və məntiqi inkişafı ilə fərqlənir.

Kənar hissələrdəki əsas musiqi fikri bir növ leyttembrə çevrilir və eyni bir vaxtda, bütün əsərin leytintonasiyası rolunu oynayır.

İti səslənməyə gətirib çıxaran B hissəsində ansambl səslərinin kifayət qədər fəallığını müşahidə etmək olar. Burada insan qəlbində baş qaldıran istəklərin bəstəkar “yozumunun” daha coşğun ifadəsi ilə qarşılaşırıq.

Tətbiq olunmuş ifadə vasitələrinin lakonikliyinə baxmayaraq, əsərin dili mürəkkəbdir: yazı dəst-xəttinin qənaətcilliyi heyranlıq doğurur. Fleyta grande, Cl.in B və fortepiano partiyaları virtuozdur (xüsusilə orta hissə); bu alətlərin səsləri bir-birinə qovuşaraq, birləşir və vahid melodik-harmonik kompleks əmələ gətirir. Dissonans harmonik səsbirləşmələri qeydi-adi daxili dinamika təəssüratı yaradır.

Kulminasiya mürəkkəb ritmik şəkil və aksentlərlə, yüksək registr səslənməsi, dolğun faktura və ikiləşmiş baslarla səciyyələnir. Bəstəkar burada müasir musiqi başlanğıcını neoklassisizmin formayaradıcı prinsipləri ilə birləşdirməyə müvəffəq olmuşdur. Musiqi dramaturgiyasının inkişafında fortepiano partiyası və nəfəs alətlərinin səs ahəngləri bir-birini tamamlayır, onların arasında fakturalı - tembrli tarazlıq əldə olunur.

Bütün əsər istər məzmununa, istərsə də kompozisiya həllinə və ən vacibi isə, alətlərin şərhinə görə fərqlənir. Bunu qeyd etmək zəruridir ki, ifaçılıqla bağlı olan bütün məsələlərdə bəstəkarın fortepianoya dərindən bələdliyi maraq doğurur. Bəstəkar alətin bütün virtuoz - texniki və ifadəli - tembr imkanlarına yiyələnərək, təqdim olunan əsərdə hər üç alətin üzvi surətdə vəhdətinə nail olmuşdur.

Məhdud ifadə vasitələri ilə dolğun hisslərin ifadə olunması maraq doğurur. Bunun üçün əsərin A hissəsində (6/4, pp) sekunda-tersiyalı klasterlərin tətbiqi fortepiano partiyasında səslərin tədricən üst-üstə yığınını əmələ gətirir.

Əsas musiqi fikri Cl.in B-yə həvalə olunmuşdur: “h” dayaq nöqtəsinə istinad edən aşağı istiqamətli “d-cis-h” özəyi leyttembrə çevrilir və bütün əsərin leytintonasiyası rolunu oynayır.



Getdikcə fortepiano partiyasında interval tərkibinin genişlənməsi aramla, tədricən inkişaf edən vahid musiqi fikrinin nəqledici təbiətini üzə çıxarır. Əsərin məzmunu ilə forması tam vəhdətdədir: musiqidə olduqca dərin hisslər və istəklərdən söhbət açılır.

A hissəsinin inkişafında yeni mərhələ olan kvinta intervalına qədər genişlənmə (fortepiano partiyası), əsas fikrin Cl.in B-də davam və inkişaf etdirilməsi və

bu məcrada əsas leytintonasiyanın yeni yüksəklikdən təqdim olunması (aşağı istiqamətli "f-e-d") maraq doğurur. Qeyd edək ki, Flute grande bu alətlərə nisbətən A hissəsində daha passivdir və musiqi materialının işlənməsində hələ ki, epizodik iştirak edir. Lakin növbəti (B - orta) hissədə kifayət qədər fəallaşaraq, inkişafın irəli aparılmasında müəyyən rol oynayır.

Getdikcə fortepiano və klarnet partiyalarında daha geniş diapazon əldə olunur (məsələn, oktava ikiləşmələri və akkordlu-harmonik komplekslər). Bütün qeyd olunanlar dərinləşən hisslərdən söhbət açır: Yuxarı istiqamətdə özünü göstərən "g-a-is-h" intonasiya özəyinin milli koloritə malik olması son dərəcə ifadəlidir.



Ümumiyyətlə, əsərin faktura etibarilə get-gedə dolğunlaşan partiturasında tonal-harmonik ifadə vasitələri ilə Azərbaycan musiqisi üçün yeni olan səsahəngləri əldə olunmuşdur. Bütün bu səsahəngləri dərinləşərək, fortepiano partiyasının dolğun akkord-harmonik komplekslərini əmələ gətirir, klaster yaradan və uzun sürən orqan punktu ilə nəticələnir. Digər tərəfdən bu orqan punktu A hissəsinin başa çatmasına işarədir: Cl.in B partiyasında əsas musiqi fikrinə qayıdış baş verir və orta hissəyə keçid əmələ gəlir.

B hissəsi üçün xromatik yarımton və tonların növbələşməsi üzərində qurulan triol ritmik inkişaf, eləcə də polifonik imitasiyalılıq  xasdır.






Dolğun linear çoxtəbəqəli səstərkibi fakturada qatılaşma əmələ gətirir və hər bir səsdə laylaşma meydana çıxarır: üçton, x.4 və 5 intervallarının rolu artır. Əgər A hissəsində Flute grande passiv idisə, indi inkişafa fəal şəkildə qoşulur və ümumi inkişafın kulminasiyasında aktiv iştirak edir. Repriza zildə (bir oktava yuxarıda) başlayır. Maraqlıdır ki, burada həm I, həm də II mövzular vəhdətdə göstərilir. Kodada əsərin başlanğıcına qayıdış özünü göstərir və quruluş baxımından haşiyələnmə meydana çıxır ki, bu da formanın məntiqiliyini və dərindən düşünüldüyünü bir daha isbat edir.

Pianoçuluq tapıntılarının zəminində tematik inkişaf prinsipləri, səslənmənin gücünün effekti işlənib hazırlanmış, cürbəcür instrumental tembr və çalarlar istifadə olunmuş və texniki nailiyyətlər (harmonik akkord komplekslər, sekunda, tersiya, kvarta-kvinta əsasında klasterlər) əldə edilmişdir.

Əsərdə dinamikliyin bir çox üsullarından, dəqiq desək, orqan punktlarının istifadəsi ilə melodik və harmonik şəkildəyişmələri, ritmik, temp, struktur və faktura şəkildəyişmələri istifadə olunmuşdur ki, bu da səsin artıb, azalmasını, kulminasiyanı əmələ gətirir, bir sözlə, vacib formayaradıcı rol oynayır.




İ. Hacıbəyovun "İstəklər" triosu həmişəyaşar klassikaya, klassisizmin sabit norma və ənənələrinə bağlılıqla diqqəti cəlb edir. Bəstəkar bəlkə də digər əsərlərindən daha artıq özünü məhz təhlil etdiyimiz kompozisiyasında neoklassisizmin ardıcılı kimi tanıdır və bu cəhət onun polifonik təfəkkürünə, kameralılığa meylliliyinə, klassik biçimə malik formayaradıcı prinsiplərə meylliliyinə sirayət edir. Hazırki əsərin sözü gedən cizgilərə malik olması orijinal bədii üslubuna gətirib çıxarmışdır.

Əsərin bədii üslubunun xüsusiyyətlərini müəyyənləşdirərək təhlil zamanı aydın olur ki, müəllifin tətbiq etdiyi diqqətəlayiq və maraqlı ifadə vasitələri XX əsrin II yarısı Azərbaycan kamera – instrumental musiqisində yenidir. İ.Hacıbəyovun düşüncə tərzi, bəstəkarlıq axtarışlarının müxtəlifliyi, onun yaradıcılığında istifadə olunan tematika, janr və formaların çoxplanlılığı bu əsərində xüsusi olaraq diqqəti cəlb edir. Hazırki əsər İ.Hacıbəyov musiqisində polifonik janr və formaların tədqiqi üçün geniş meydan açır.

Musiqi təfəkkürünün intizamı, aydınlıq və məntiqiliyin müasir musiqidə yenidən dirçəldilməsi, ölçüb-biçilmiş yazı, forma ciddiliyi, rasional və emosionallığın tarazlaşdırılması İ.Hacıbəyovun "İstəklər" triosunun Azərbaycan kamera-instrumental musiqi sahəsində yeri və mövqeyini müəyyənləşdirir.

Qeyd edək ki, XX əsr Azərbaycan musiqisində möhkəm klassik ruh hər za- man mövcud olmuşdur. Geniş götürsək, milli musiqidə klassik başlanğıc öz əsasını Azərbaycan professional musiqisinin banisi Ü.Hacıbəyli yaradıcılığından götürür və bu yolda onun ardıcılı kimi çıxış edən İsmayıl Hacıbəyovun özünəməxsus dünyabaxışı, onun yeni tarixi şəraitdə klassisizmə möhkəm dayaqlanması və klassik ənənələrə sadiq qalması, bəstəkar yaradıcılığında Avropa musiqisinin aparıcı janr və formalarının tətbiqi nəzərdən qaçmır.

Əsərə "İstəklər" kimi maraqlı və cazibədar bir ad verən bəstəkar bununla da onun həm məzmununu, həm də istiqamətini müəyyənləşdirir. Musiqinin parlaq ifadə olunmuş emosionallığı öz başlanğıcını məhz buradan götürür. Bəstəkar burada tamamilə başqa mövqedən çıxış edir: sərbəst inkişaf edən musiqi ünsürləri haradasa aşıb-daşan insan fantaziyasını xatırladır, lakin bunun arxasında əsərin dəqiq rasional ideyası gizlənir: birhissəli formanın ayrı-ayrılıqda hər bir bölməsi və kompozisiya bütövlükdə son dərəcə düşünülmüş, ölçülüb-biçilmişdir. Bəstəkar milli musiqinin lad intonasiyalarına dayaqlanan yeni yazı texnikasına üz tutur.

Gördüyümüz kimi, trionun bu cür adlandırılması diqqətəlayiqdir. Bu ad Azərbaycan bəstəkarının üslub niyyətlərini nəinki üzə çıxarır, eyni zamanda, onun musiqi meyllərinin dəqiq ünvanına nişan verir. Bu əsər insanın duyğuları, onun daxili aləmi və hisslərini (xüsusən də şövq və coşğusunu) ifadə edən şəxsi məqamları ilə bağlıdır. İ. Hacıbəyov zəriflik və incəlik, nəfislik və nəcibliklə aşıb-daşan musiqi üslubunu canlandırır.

Son olaraq qeyd edək ki, "İstəklər" triosu İsmayıl Hacıbəyovun yaradıcılıq irsində özünə layiqli yer tutaraq, onun əsərlərində parlaq ifadə olunmuş individuallığı və yüksək professionallığını bir daha üzə çıxarır. Bunun təsdiqi olan hazırki əsər bəstəkarın musiqidə yeni bədii ideya axtarışlarına və onların musiqidə qeyri-a-di yollarla təcəssümünə bir daha nümunədir. Əsərin bədii üslub xüsusiyyətlərinin mükəmməlliyi İ. Hacıbəyovun Azərbaycan kamera-instrumental musiqi tarixində rolu və əhəmiyyətini müəyyənləşdirməyə imkan verir.

"İstəklər" triosu İ.Hacıbəyovun həm də kamera-instrumental janra bir bəstəkar kimi yiyələndiyi istedadını və bənzərsiz simasını şərtləndirən əsərdir. Məhz bu əsər bəstəkarın bədii üslubunun, onun malik olduğu məzmun və forma kamilliyinin ifadəsidir. Qanunauyğundur ki, İ. Hacıbəyov bəstələdiyi bütün digər əsərlərdə olduğu kimi, bu əsərində də mükəmməl həmahəngliyi və tarazlığı ilə seçilən fərdi üslubuna sadiq qalmışdır.

## Ədəbiyyat siyahısı:

1.Əliyeva F.Ş. Azərbaycan musiqisində üslub axtarışları. Bakı, 1996, 118 s.
2.Əliyeva F. XX əsr Azərbaycan musiqi mədəniyyəti tarixinin qaynaqları. Bakı "Nurlan" 2005-ci il
3.Əlizadə F. Q.Qarayev, Bakı, 1997, 111 s.
4.Hacıbəyov Ü. Azərbaycan xalq musiqisinin əsasları. Bakı, Yazıçı, 1956
5.Hacıbəyov İsmayıl. Məqalələr, oçerklər, xatirələr" (Redaktor Ülviyyə Hacıbəyova. Bakı, OKA ofset, 2007
6.Mahmudova Ş. Muğamda mövzunun təhlilinə dair. Metodik tövsiyyə. Bakı, 1996.
7.XX əsrin Azərbaycan musiqisi (məqalələr toplusu). Bakı, 1996, 202 s.
8.Абдуллазаде Г.А.Философская сущность Азербайджанских мугамов. Баку, Язычы,1983,39с.
9.Абезгауз И.В. Развитие традиций. Советская музыка 1963 г, №4
10.Иманова У.И. Классицизм XX века и музыка К.Караева. Автореферат. Ташкент. 1990 г. 28 с.
11.Касимова Н. Исмаил Гаджибеков. Сборник статей. Б. 1982 г.
12.Крейн Ю,Онеггер Равель, Респиги. М. Музыка, 1956 г. 108 с.

**Мухаммад Вагиф оглы Валиев**

## ТРИО "ЖЕЛАНИЯ" ИСМАИЛА ГАДЖИБЕЕВА (1998)

**Резюме:** В статье рассматривается одно из последних произведений выдающегося композитора Исмаила Гаджибекова, трио «Желания», написанное для фортепиано, кларнета и флейты. Это произведение входит в число успешных произведений композитора. Он имел успех на многих международных фестивалях, в концертных залах зарубежных стран и у себя на родине. Это одно из произведений, интересных по содержанию и композиционному решению и отличающихся своеобразием стиля. Трио вызывает большой интерес своим национальным духом, лаконичностью мотивов, синкопированностью ритмов и большим профессионализмом в полифоническом отношении.

**Ключевые слова:** композитор, Узеир Гаджибейли, национальность, драма, трио, содержание, флейта, кларнет, фортепиано, кульминация, полифония

**Muhammad Vagif oghlu Valiyev**

**ISMAYIL HAJIBAYOV'S "WISHES" TRIO (1998)**

**Summary:** The article examines the trio “Istekler” written for piano, clarinetand flute, one of the last works of the outstanding composer Ismayil Hajibayov.This work is among the successful works of the composer. He has achieved successin many international festivals, concert halls of foreign countries and in his homeland. It is one of the works that is interesting in terms of content and compositional solution and differs in style originality. The trio is of great interestdue to its national spirit, laconic motifs, syncopated rhythms, and polyphonic writing with great professionalism.

**Key words:** Composer, Uzeyir Hajibayli, nationality, drama, trio, content,flute, clarinet, piano, climax, polyphony

**Məqalənin redaksiyaya daxil olma tarixi: 27. 10. 2022**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Gülnar Verdiyeva**